# Tezliklə işğaldan azad edəcəyik

Heydər Əliyev Mərkəzində Böyük Vətən Müharibəsində qələbənin 74-cü və Şuşa şəhərinin ermənilər tərəfindən işğalının 27-ci ildönümü ilə əlaədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə mərkəzin bələdçisi Mahirə Kərimova açmışdır. Şəhər 3 nömrəli məktəbin müəllimi Vəfa Abdullayeva bildirmişdir ki, keçmiş SSRİ xalqlarının tarixinə Böyük Vətən Müharibəsi kimi düşmüş 1941-1945-ci il müharibəsi zamanı faşizm üzərində qələbə çalınmasında Azərbaycan xalqının böyük rolu olmuşdur. Altı yüz minədək Azərbaycan oğul və qızı müharibədə iştirak etmişdir. Onların çoxu cəbhədə misilsiz igidlik nümunəsi göstərmişdir. Azərbaycan xalqı arxa cəbhədə də fədakarcasına çalışaraq ordunun birinci növbədə neftlə, ərzaqla, paltar və texnika ilə təminatında əvəzsiz rol oynamışdır.

Çox təəsüf ki, bizim ocağımızın başında yer verdiyimiz ermənilər faşistlərdən daha qəddar və xəyanətkar çıxaraq 1992-ci ilin may ayının 8-də Qarabağımızın gözəl guşəsi olan Şuşanı işğal edərək viran qoymuşlar.

Ancaq biz əminik ki, Şuşamız tezliklə erməni vandallarının işğalından azad olacaq, erməni cəlladları faşistlərin aqibətini yaşayacaqlar.

**Heydər Əliyev Mərkəzi.**

# Şuşasız keçən 27 il

Rayon tarix diyarşünaslıq muzeyində Qarabağımızın brilliant qaşı olan Şuşa şəhərinin erməni vandalları tərəfindən işğal olunmasının 27-ci il dönümü ilə bağlı "Şuşasız ötən illər" mövzusunda tədbir keçirilmişdir. Tədbirə şəhər ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri dəvət olunmuşdu.

Şuşanın Azərbaycanın ən qədim və gözəl şəhərlərindən biri uzun illər Qarabağ xanlığının mərkəzi olduğu zaman-zaman yadelli işğalçılara qarşı mərdliklə müqavimət göstərdiyi qeyd edilmişdir.

Bəlkə də Şuşanin əvəzolunmaz təbiətindəndir ki, bu gözəl məkanda çox görkəmli musiqi xadimləri yetişib.

Əsrlər boyu düşmənə baş əyməyən Şuşa şəhəri 1992-ci ilin may ayının 8-də məkrli erməni quldur dəstələri tərəfindən işğal edilmiş, Şuşa qalası, Xurşidbanu Natəvanın saray kompleksi, Mir Mövsüm Nəvvabın evi, Bülbülün evi, Şuşa məscidi və sair memarlıq inciləri vəhşicəsinə dağıdılmışdır. Ermənilər Şuşanın füsunkar təbiətini də məhv etmişlər.

Çıxış edənlər əmin olduqlarını bildirmişlər ki, bütün işğal olunmuş ərazilərimiz kimi Şuşa şəhəri də tezliklə erməni qəsbkarlarından azad ediləcək, bu gözəl şəhər əvvəlki abad, şən, firavan günlərinə qovuşacaq.

Tədbirin sonunda şagirdlərin Şuşa və Qarabağla bağlı sualları cavablandırılmışdır.

**İlhamə SEYİDOVA,**
**muzeyin elmi işçisi.**

# Zona birinciliyinin qalibi məlum olub

Qəbələdə Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əhatə etdiyi rayonların təhsil müəssisələri arasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilib.

Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilən birinciliyin əsas məqsədi şagirdlərin fövqəladə hallara hazırlıqla bağlı fiziki və intellektual səviyyəsinin yoxlanılması, məktəblilərdə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin artırılması və gənc nəslin nümayəndələrinə sağlam həyat tərzinin təbliğindən ibarət olub.

Tədbirin açılışında Şimal-qərb Regional Mərkəzinin rəisi, polkovnik-leytenant Sadiq Bəkirli, rayon icra hakimiyyətinin, gənclər və idman idarəsinin, təhsil şöbəsinin nümayəndələri çıxış edərək yarışın əhəmiyyətindən danışıb, iştirakçılara uğurlar arzulayıblar.

Yarış "Kombinə edilmiş yanğın estafeti", "Manеələr zolağı" və "Komandaların təqdimatı" adlı üç mərhələdən ibarət olub.

Gərgin mübarizə şəraitində keçən yarışların yekunlarına əsasən, Şamaxı rayonu Elxan Rızayev adına Mədrəsə kənd tam orta məktəbi I yeri, Qax şəhəri 2 nömrəli tam orta məktəb-liseyi II yeri, Oğuz şəhər 1 nömrəli tam orta məktəbi isə III yeri tutub. Yarışda fərqlənmiş komandalar müvafiq yerlər üzə diplomlarla təltif olunub.

Birinci yeri tutan komanda "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika mərhələsində iştirak etmək hüququ əldə edib.

**"Qəbələ"**

# Mühəndis-pedaqoji heyət üçün təlimlər

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində pilot peşə məktəblərinin mühəndis-pedaqoji heyəti üçün "Traktorların tənzimlənməsi və istifadəsi" mövzusunda təlim keçirilib.



Beş gün davam edən təlimlər nəzəri və praktik olmaqla iki hissədən ibarət olub. Təlimdə ətraf rayonların da peşə tədris mərkəzlərinin mühəndis-pedaqoji heyəti iştirak edib.

Təlimlər Avropa İttifaqının maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin icra etdiyi layihə əsasında həyata keçirilib. Təlimlərdə məqsəd pilot peşə mərkəzlərinin mühəndis-pedaqoji heyətini kənd təsərrüfatı sahəsində ən yeni təcrübə, texnika və metodlarla tanış etmək, onların bilik və bacarıqlarını artırmaqdır.

**"Qəbələ"**

# Vətəndaşların nəzərinə!

Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov may ayının 18-də Şəki şəhər rayon Polis Şöbəsində Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ rayonlarının sakinlərini qəbul edəcəkdir.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı Qəbələ Rayon Polis Şöbəsində qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# Tütün əkimi davam edir

Bu il rayonumuzun təsərrüfatlarında 75 hektar sahədə tütün əkilməsi planlaşdırılır. Artıq neçə gündür ki, fermer təsərrüfatlarında tütün şitillərinin sahələrə köçürülməsinə başlanılıb. Məhsul istehsalçıları qısa müddətdə 40 hektara yaxın sahədə tütün əkiblər.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə bu ilki mövsümdə fermerlər 5 hektarda "Virciniya" növlü ətirli, 70 hektarda isə yerli tütün sortları yetişdirəcəklər.

Xatırladaq ki, ötən il də qəbələli fermerlər 75 hektar sahədə tütün yetişdirib, 99 tona yaxın quru tütün istehsal ediblər.

**"Qəbələ"**


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2019-cu ilin ikinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


# İtmişdir

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən **İbrahimov Əhməd İsmət oğluna** verilmiş İD seriyalı 170036 nömrəli **tələbə bileti** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Qəbələ Rayon Şöbəsi tərəfindən 20 aprel 2007-ci il tarixdə **«Ruslan-86» Kəndli Fermer Təsərrüfatına** verilmiş A seriyalı 000546 nömrəli **torpaq sahəsinin planı və ölçüsü,** Qəbələ Rayon İcra Hakimiyyəti başçısının həmin fermer təsərrüfatına torpaqların uzun müddətli istifadəyə verilməsi barədə 25 iyun 2003-cü il tarixli 114 nömrəli **sərəncamı** və torpaq sahəsinin icarəyə verilməsi haqqında Qəbələ Rayon İcra Hakimiyyəti ilə «Ruslan-86» Kəndli Fermer Təsərrüfatı arasında 17 yanvar 2007-ci il tarixdə bağlanmış 380 nömrəli **müqavilə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (keçmiş kənd) sakini **Babayeva Gühər Səfər qızına** verilmiş JN seriyalı 663 F nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Tikanlı kənd sakini **Şəfiyev Səlvər Aslan oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0020 nömrəli (kod 40615018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1780